MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ

Şəhla Xəlilli
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.325

Giriş. Türk-İslam sənətində mühüm yer tutan təzhib termini ərəb mənşəli "zəhəbə" (qızıllamaq) sözündən yaranmışdır və əsasən qızıl yaldızla bəzəmə ənənəsi ilə əlaqələndirilir. Bu sənət xüsusilə Qurani-Kərim və digər əlyazma kitablarının tərtibatında geniş tətbiq olunmuş, həmçinin xətt lövhələrinin haşiyələrində istifadə edilərək estetik və simvolik dəyər qazanmışdır. Təzhibin məqsədi yalnız vizual gözəllik yaratmaq deyil, eyni zamanda mətni müqəddəs və seçkin bir aura ilə vurğulamaqdır. Sənətkarlar səhifələrin haşiyə və sərlövhələrini müxtəlif ornamentlər, nəbati motivlər və həndəsi naxışlarla bəzəyərək oxucuya həm estetik zövq, həm də mənəvi təsir təqdim etmişlər. Bu baxımdan təzhib İslam kitab sənətində həm funksional, həm də rəmzi əhəmiyyət daşıyan əsas üslub formalarından birinə çevrilmişdir.

Təzhib sənətinin tarixi inkişafı. Təzhib sənətinin kökləri İslamdan əvvəlki dövrlərə qədər uzanır. Yazı və miniatürlərin bəzədilməsi ilə bağlı ilk nümunələrə Orta Asiyada, Uyğur türkləri dövründə rast gəlinir. Turfan qazıntıları zamanı Qara-Xoca bölgəsində aşkar edilən bu nümunələr Maniheist Uyğur rahiblərinin miniatürlərində yer alan sadə nəbati ornamentlərdən ibarət olmuşdur. VIII əsrdə uyğurların Maniheizmi qəbul etməsi ilə birlikdə bəzək sənəti daha sistemli şəkildə inkişaf etməyə başlamışdır (Turgut, 2003). Bu mərhələ sonrakı dövrlərdə İslam kitab sənətində formalaşacaq nəbati üslubların ilkin təməllərini hazırlamışdır.

VIII-X əsrlər arasında köçürülmüş Qurani-Kərim nüsxələri göstərir ki, səhifələrin təzhiblə bəzədilməsi ənənəsi məhz müqəddəs kitabın tərtibatı ilə geniş yayılmışdır (Çankaya, 2024, s. 243). Beləliklə, təzhib sənətinin inkişafında Qurani-Kərim mühüm rol oynamış, müqəddəs mətnin vizual baxımdan da ucaldılması məqsədi güdülmüşdür.

Orta əsrlərin ilk dövrlərindən etibarən hökmdarların və varlı təbəqənin kitaba və sənətə marağının artması təzhibli, təsvirli və nəfis cildli əlyazmaların çoxalmasına səbəb olmuşdur. Mərv, Şam, Qahirə, Bağdad və Kordova kimi dövrün böyük elm mərkəzlərində kitabxanalar yaradılmış, eyni zamanda kitabların köçürüldüyü və cildləndiyi kitabçı dükanları geniş yayılmışdır. Bu mühit katiblər, müzəhhiblər, mücəllidlər və müsəvvirlər üçün məhsuldar yaradıcılıq şəraiti formalaşdırmışdır.

XVI əsrə gəldikdə isə, xüsusilə Osmanlı-Səfəvi münasibətləri çərçivəsində sənətkarların yerdəyişməsi təzhib və miniatür sənətində yeni üslubi mərhələnin formalaşmasına səbəb olmuşdur. 1507-ci ildə Şah İsmayılın Heratı ələ keçirməsindən sonra, aralarında məşhur musəvvir Behzadın da olduğu sənətkarların Təbrizə gətirilməsi Səfəvi miniatür və təzhib sənətində güclü bir başlanğıc yaratmışdır (Özcan, 2007, s. 67). Digər tərəfdən, Yavuz Sultan Səlimin Təbriz və Misir səfərləri nəticəsində İstanbula gətirilən şərqli nəqqaşların birgə fəaliyyəti XVI əsrə qədər təsirini davam etdirən dekorativ bir üslubun formalaşmasına zəmin yaratmışdır (Mahir, 2012, s. 51).

Qanuni Sultan Süleyman dövründə hazırlanan ədəbi əsərlərdə Herat üslubunun müşahidə olunması, Herat mənşəli sənətkarların saray nəqqaşxanasında uzun müddət təsirli olduqlarını göstərir (Mahir, 2012, s. 51). Bundan əlavə, Osmanlı torpaqlarına gətirilən Səfəvi sənətkarlar Lala Mustafa Paşa, Özdəmiroğlu Osman Paşa və Fərhad Paşa kimi dövlət xadimlərinin səfərlərini təsvir edən qəzavatnamələrin illüstrasiyasında mühüm rol oynamışlar. Bu əsərlərdə Səfəvi dövrü Qəzvin üslubunun təsirləri açıq şəkildə hiss olunur (Mahir, 2012, s. 65).

Beləliklə, təzhib sənəti Orta Asiya köklərindən başlayaraq İslam dünyasında müqəddəs kitabın bəzədilməsi ilə sistemləşmiş, orta əsrlərdə kitab mədəniyyətinin inkişafı ilə geniş yayılmış və XVI əsrdə Osmanlı - Səfəvi incəsənət mühitində qarşılıqlı təsirlər nəticəsində yeni üslubi zirvəyə çatmışdır.

XVII əsrin sonlarına doğru təzhib sənəti özünün ən kamil və parlaq nümunələrini ortaya qoymuşdur. Bu dövr təzhib sənətinin klassik mərhələsi kimi qiymətləndirilir. Müxtəlif bölgələrdən gələn sənətkarlar Osmanlı təzhibinə yeni üslub və elementlər gətirərək onun daha da zənginləşməsinə səbəb olmuşlar. Lakin sonrakı mərhələdə təzhib sənətinə maraq müəyyən qədər zəifləmiş və bu sahədə nisbi durğunluq müşahidə olunmuşdur. Osmanlı sənətinin digər sahələrində olduğu kimi, Qərb incəsənətinin təsiri təzhibdə də özünü göstərmişdir. Belə ki, ənənəvi xırda nəbati ornamentlər tədricən yerini naturalist üslubda işlənmiş çiçək təsvirlərinə və çiçək buketlərinə vermişdir.

Bu dəyişikliklər nəticəsində təzhib sənətində müəyyən bir canlanma mərhələsi başlanmışdır. Həmin dövrdə lalə, qızılgül, süsən, bənövşə, sünbül və digər çiçək motivləri geniş şəkildə təsvir olunmağa başlamışdır.

Avropada formalaşmış barokko və rokoko üslublarının təsiri ilə XVIII əsrdən etibarən "Türk rokokosu" adlandırılan yeni bir üslub meydana gəlmişdir. Bu üslub təzhib sənətində daha dinamik və dekorativ formaların yaranmasına səbəb olmuşdur.

Cümhuriyyət dövrünə gəldikdə isə, təzhib sənəti iki əsas istiqamətdə inkişaf etmişdir: bir tərəf klassik təzhib ənənələrini davam etdirməyə çalışmış, digər tərəf isə Qərb incəsənəti ilə türk bədii ənənələrini uzlaşdırmağa yönəlmişdir.

Beləliklə, təzhib sənəti Türkiyədə mürəkkəb və çoxşaxəli inkişaf yolu keçmiş, eyni zamanda İran mədəni mühitində də davam etdirilmişdir. Azərbaycanda təzhib sənəti müstəqil ixtisas sahəsi kimi geniş formalaşmamış, əsasən xəttatlıq və dekorativ sənət daxilində inkişaf etmişdir. Bu sənətin Azərbaycan ərazisində tətbiq olunmaması ilə bağlı fikir mübahisəli olmaqla yanaşı, ayrıca tədqiqata ehtiyac duyan məsələ kimi qiymətləndirilə bilər.

Təzhib sənətinin YUNESKO tərəfindən tanınması. Təzhib sənəti müasir dövrdə yalnız tarixi-bədii irs kimi deyil, həm də yaşayan ənənəvi sənət növü kimi beynəlxalq səviyyədə qiymətləndirilir. Bu baxımdan onun YUNESKO tərəfindən tanınması xüsusi əhəmiyyət kəsb edir. Təzhib sənəti 2014-cü ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Bu nominasiya ilkin olaraq Türkiyə tərəfindən təqdim olunmuş, daha sonra isə Azərbaycan, İran, Özbəkistan və Pakistan kimi ölkələrin də qoşulması ilə çoxmillətli mədəni irs nümunəsi kimi genişləndirilmişdir.

Bu qərar təzhib sənətinin yalnız estetik xüsusiyyətlərini deyil, həm də onun mədəni yaddaşın qorunması və nəsildən-nəslə ötürülməsi baxımından əhəmiyyətini təsdiqləyir. YUNESKO-nun rəsmi sənədlərində qeyd olunduğu kimi, təzhib sənəti ustad-şagird ənənəsi çərçivəsində yaşadılır və bu ənənə onun davamlılığını təmin edir [9].

Təzhibin bu siyahıya daxil edilməsi onun beynəlxalq səviyyədə tanıdılmasına, qorunmasına və təbliğinə yeni imkanlar yaratmışdır. Eyni zamanda, bu hadisə ənənəvi kitab sənəti və ümumilikdə İslam dekorativ sənətinin qlobal mədəni irs kontekstində qiymətləndirilməsinə mühüm töhfə vermişdir [7].

Təzhib sənətinin tətbiq sahələri. Təzhib sənəti tarixən yalnız dekorativ məqsəd daşımamış, eyni zamanda müxtəlif funksional və simvolik məna qatları ilə zəngin bədii sahə kimi formalaşmışdır. Onun istifadə sahələri əlyazma kitab mədəniyyətindən başlayaraq digər sənət növlərinə qədər geniş bir spektri əhatə edir.

İlk növbədə, təzhib sənətinin əsas tətbiq sahəsi əlyazma kitabların bədii tərtibatıdır. Xüsusilə Qurani-Kərim nüsxələrində, klassik ədəbiyyat nümunələrində və elmi əsərlərdə təzhib geniş şəkildə istifadə olunmuşdur. Bu kontekstdə təzhib həm mətnin strukturunu təşkil edən vizual element kimi çıxış edir, həm də onun estetik dəyərini artırır [1, s. 115]. Sərlövhələrin, surə başlanğıclarının və haşiyələrin ornamentləşdirilməsi vasitəsilə mətnin hissələri aydın şəkildə fərqləndirilir.

Təzhib sənəti xəttatlıq ilə sıx əlaqədə inkişaf etmişdir. Xətt nümunələrinin ətrafının və fonunun təzhib ornamentləri ilə işlənməsi yazının vizual təsirini gücləndirir və kompozisiyanın bütövlüyünü təmin edir [2, s. 72]. Bu baxımdan təzhib və xəttatlıq qarşılıqlı şəkildə bir-birini tamamlayan sənət sahələri kimi çıxış edir.

Bununla yanaşı, təzhib sənəti miniatür sənəti ilə birlikdə də geniş tətbiq olunmuşdur. Orta əsr əlyazmalarında miniatür təsvirlər ətrafında yerləşdirilən ornamental çərçivələr kompozisiyanın estetik harmoniyasını təmin edir və vizual strukturunu möhkəmləndirir [5, s. 104].

Bundan əlavə, təzhib ornamentləri memarlıq sahəsində də öz əksini tapmışdır. Məscidlərin daxili bəzəyində, günbəz və divar ornamentlərində, həmçinin kitabələrdə təzhib motivlərinin tətbiqi bu sənətin yalnız kitab sənəti ilə məhdudlaşmadığını göstərir.

Müasir dövrdə isə təzhib sənəti dekorativ-tətbiqi sənət sahəsində yeni ifadə formaları qazanmışdır. Müxtəlif bədii tablolar, qrafik dizayn nümunələri və suvenir məhsullarda klassik təzhib ornamentlərinin müasir interpretasiyası müşahidə olunur. Bu isə təzhib sənətinin davamlılığını və aktual estetik dəyərini qoruyub saxladığını göstərir.

Təzhibdə istifadə olunan motivlər. Təzhib sənətində istifadə olunan motivlər müəyyən estetik prinsiplər əsasında formalaşmış və zamanla sistemli ornament dilinə çevrilmişdir. Bu motivlər həm kompozisiyanın qurulmasında əsas rol oynayır, həm də bədii ifadə vasitəsi kimi çıxış edir (Birol & Derman, 2004). Təzhibdə müxtəlif növ motivlərdən istifadə olunur və hər biri özünəməxsus bədii və simvolik funksiyaya malikdir.

1. Bitki motivləri (nəbati/islimi motivlər): Təzhib sənətində ən geniş yayılmış motiv bitki motivləridir. Bu motivlər təbiət elementlərinin stilizə olunmuş formalarıdır və axıcı xətlər, ritmik təkrar və simmetriya prinsipləri ilə səciyyələnir. Nəbati ornamentlər daxilində xüsusi yer tutan islimi və xətayi motivləri kompozisiyanın əsas strukturunu təşkil edir. İslimi motivlər sarmaşıqvari, davamlı və hərəkətli xətlərdən ibarət olduğu halda, xətayi motivləri daha çox stilizə olunmuş çiçək formaları ilə xarakterizə olunur [3].

2. Həndəsi motivlər: Həndəsi motivlər riyazi dəqiqlik və simmetrik quruluşa əsaslanaraq yaradılır. Təkrarlanan naxışlar vasitəsilə sonsuzluq təsiri yaradır və kompozisiyanın struktur sabitliyini təmin edir. Bu motivlər təzhibin klassik üslubunda mühüm rol oynayır [1].

3. Xətai motivləri: Xətayi motivləri stilizə olunmuş çiçək təsvirlərindən ibarətdir və dekorativ cəhətdən çox zəngindir. Onlar real çiçək formasından uzaq olmaqla, kompozisiyada estetik vurğu yaradır və mərkəzi element rolunu oynayır [3].

4. Bulud motivləri: Bulud motivləri əsasən Çin təsviri sənətinin təsiri ilə İslam ornamentikasına daxil olmuşdur. Onlar dalğavari, yumşaq konturlar ilə xarakterizə olunur və kompozisiyada keçid elementi kimi istifadə edilərək hərəkət və ritm effekti yaradır [5].

5. Rumi motivləri: Rumi motivləri abstrakt ornamentlərdir və stilizə olunmuş qanad və ya heyvani formaları xatırladır. Klassik təzhib kompozisiyalarında geniş tətbiq olunur və dekorativ strukturun balansını qoruyur [1].

6. Naturalist motivlər: Naturalist motivlər XVIII əsrdən etibarən, Avropa təsiri ilə təzhibdə meydana

çıxmışdır. Bunlarda çiçəklər daha realist şəkildə təsvir olunur və kölgə, həcm effekti istifadə edilir. Lalə, qızılgül, süsən, bənövşə və sünbül bu üslubun ən tipik nümunələridir [2].

7. Simvolik və dekorativ elementlər: Bu motivlər əsas motivləri tamamlayır və boş sahələri doldurur. Nümunələrə xırda nöqtələr, haşiyə bəzəkləri və ara doldurucu naxışlar daxildir (Birol & Derman, 2004).

Təzhibdə kompozisiya. Təzhib sənətində kompozisiya ornamental elementlərin müəyyən estetik prinsiplər əsasında sistemli şəkildə təşkilini ifadə edir. Kompozisiya yalnız motivlərin sadə yerləşdirilməsi deyil, onların qarşılıqlı əlaqəsi, balansı və ritmik quruluşu ilə müəyyən olunur. Bu baxımdan təzhib kompozisiyası vahid bədii sistem kimi formalaşır və əsərin ümumi estetik təsirini müəyyən edir.

Təzhib kompozisiyasında əsas prinsiplərdən biri simmetriyadır. Ornamentlər çox vaxt mərkəzə əsaslanan və ya ox üzrə qurulan simmetrik sistemdə yerləşdirilir. Bu, kompozisiyada harmoniya və tarazlıq yaradır. Bununla yanaşı, ritm və təkrar prinsipi də mühüm rol oynayır. Müəyyən motivlərin ardıcıl və ölçülü şəkildə təkrarlanması kompozisiyaya dinamika və davamlılıq qazandırır.

Kompozisiyanın qurulmasında mərkəz və kənar hissələrin münasibəti də xüsusi əhəmiyyət kəsb edir. Əsas motiv adətən mərkəzdə yerləşdirilir və onun ətrafında köməkçi elementlər yerləşdirilərək vizual ardıcıllıq yaradılır. Bu struktur oxucunun diqqətini əsas hissəyə yönəltməyə xidmət edir.

Təzhibdə geniş istifadə olunan kompozisiya formalarına mərkəzi kompozisiya, kənar haşiyə (border) kompozisiyası, sərlövhə (başlıq) kompozisiyası və tam səhifə ornamentləri daxildir. Xüsusilə haşiyə kompozisiyalarında zəncərək, rumi və həndəsi motivlərdən istifadə edilərək səhifə çərçivəyə alınır.

Rəng və qızılın tətbiqi də kompozisiyanın ayrılmaz hissəsidir. Qızıl elementlər əsas motivləri ön plana çıxarır, rənglər isə kompozisiyada kontrast və dərinlik yaradır. Rənglərin balanslı paylanması ümumi harmoniyanın təmin olunmasında mühüm rol oynayır.

Ədəbiyyat:

1. Blair S. S. Islamic calligraphy. – Edinburgh: Edinburgh University Press, 2006.
2. Derman U. Türk hat sanatı. – İstanbul: Kültür Bakanlığı Yayınları, 1998.
3. Özkeçeci İ., Özkeçeci Ş. Türk tezhip sanatı. – İstanbul: Geleneksel Sanatlar Yayıncılık, 2014.
4. Pakalın M. Z. Osmanlı tarih deyimleri ve terimleri sözlüğü. – İstanbul: Milli Eğitim Bakanlığı Yayınları, 1993.
5. Roxburgh D. J. The Persian album, 1400–1600: from dispersal to collection. – New Haven: Yale University Press, 2005.
6. Halilli F., Halilli Ş. Dünya belleği – Azerbaycan'da el yazmaları koleksiyonlarının dijital sunumu // 3. Uluslararası Balkanlar, Anadolu, Kafkasya ve Türkistan Coğrafyası Sanat, Kültür, Tarih ve Folklor Kongresi (Aydın, 24–26 Ekim 2023) / red. A. Aytaç. – Aydın, 2023. – S. 111–115.
7. Xəlilli Ş. Dünya yaddaşı: əlyazma irsi // Mədəni irs beynəlxalq ustad məktəbi: tədris vəsaiti / tərt. F. Xəlilli. – Bakı: AFPoliqrAF, 2025. – S. 142–153. – DOI: https://doi.org/10.30546/978-9952.2025.1142
8. Khalilli Sh. Manuscript pattern: tezhib (illumination) // Dialogues in cultural heritage: book of abstracts of the 6th YOCOCU Conference / red. A. Macchia, N. Masini, M. F. La Russa, F. Prestileo. – YOCOCU, CNR–IBAM, 2018. – P. 281–282.
9. YUNESKO. Traditional art of illumination (tezhip) [Elektron resurs]. – 2014. – URL: https://ich.YUNESKO.org/en/RL/traditional-art-of-illumination-tezhip-00959

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300